# Milli etimadın gücü

**Prezident İlham Əliyevin doğum günü 2003-cü ildən mühüm və bir qədər mürəkkəb dövrdə Ulu Öndər Heydər Əliyevdən sonra xalqımızın siyasi estafeti qəbul edən, bununla bərabər xalqımızın böyük ideallarını və gələcək strateji baxışlarını özündə birləşdirən liderin şəxsi tərcümeyi-halının bir günüdür. Lakin on illər sübut etdi ki, İlham Əliyev xalqımızın qarşısında dayanan ən ümdə, ən mühüm vəzifələri yerinə yetirməklə şəxsi tərcümeyi-halının gününü millətin, dövlətin gününə qovuşdura bildi.**



XXI əsrin əvvəllərində mürəkkəb situasiyada Heydər Əliyevdən sonra dövlətimizin gələcəyini qeyri-müəyyənliyə, məchulluğa daxil etmək istəyən qüvvələr var idi. Onlar meydanlarda müxtəlif toqquşmalara da əl atdılar. Cəmi iki il sonra müxtəlif inqilabi proseslər dünyanı bürüdü. Tam məsuliyyətlə deyə bilərik ki, qızılgül inqilabları, əslində, qanlı inqilablar silsiləsi məhz Azərbaycanda dayandırıldı. Ondan sonrakı dövrdə bağlanan neft müqavilələri dağılmış iqtisadi sferanın bərpasına, bölgələrimizin inkişafına, ən başlıcası ordu quruculuğuna imkan yaratdı.

Prezident İlham Əliyevin strateji gücü, iradəsi imkan verdi ki, Azərbaycan güclü ordu formalaşdırsın. Ondan sonrakı illərdə regional və beynəlxalq şəraitin dəyişməsindən asılı olmayaraq, ölkəmiz həmişə hərbi siyasəti prioritet saxlayaraq yüz illər ərzində adına müxtəlif yarlıqlar yapışdırılan, həmişə yalnız ermənilərin timsalında güclü Qafqaz orduları kimi vəsf edilən, müəyyən qüvvələrin, dövlətlərin iradəsi ilə şişirdilən xalqların qarşısında böyük gücünü təqdim etməyi bacardı.

İlham Əliyevi xarakterizə edən ən mühüm xüsusiyyətlərdən biri proqramlı idarəçiliyə üstünlük verməsidir. Elə bir sahə yox idi ki, onunla əlaqədar 5-7, bəzən 10 illik proqram qəbul edilməsin. Bu, çox önəmlidir. Düşünürəm ki, bu, Azərbaycanın ümumi simasını, iqtisadi-siyasi həyatını fərqli şəkildə dəyişə bildi. Ən başlıcası Prezident İlham Əliyevin dəqiq strateji xətti var. Humanitar, mədəni, idman, o cümlədən iqtisadi, sosial, siyasi tədbirlərin də əsas hədəfi, məqsədi məhz torpaqlarımızın bütövlüyünə qovuşmaq idi. Müxtəlif qlobal konfranslardan, tədbirlərdən ümumiləşdirərək bir cümlə deyə bilərəm ki, ölkə rəhbəri həmişə tariximizdəki acılara ağrıyaraq yanaşıb. Bakı Dövlət Universitetinin 100 illiyi ilə bağlı tədbirdə dövlət başçısı "Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlər boyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur?" fikirlərini səsləndirərək, eyni zamanda o dövrün rəhbərlərinin də məsuliyyətsizliklərini ortaya qoyaraq lider xarizması, iradəsi, gücü ilə tarixlə müasir dövrümüz arasında güclü vəhdət yaratdığını göstərdi.

İlham Əliyevin adı tarixi salnaməmiz olan Vətən müharibəsində qalacaq. Biz 27 sentyabr - savaşın başlanması günündə millətimizin necə vüqarlı olduğunun, ruh yüksəkliyi göstərdiyinin şahidiyik. Eyni zamanda İlham Əliyevin sərkərdəlik məharəti təqdim olundu. Bunu Aprel və Günnüt əməliyyatları, digər ərazilərdə ermənilərə vurulan hərbi zərbələr də göstərmişdi. Bütün bu döyüşlər mahiyyət etibarilə Vətən müharibəsinin məşqləri idi. Şübhəsiz ki, dünya tarixində savaş dövründə xalqa müraciət, siyasi müstəvidə prosesi güclü formada millətimizin iradəsi çərçivəsində saxlamaq, informasiya məkanında öncüllüyü qorumaq, düşmənə psixoloji zərbələr vurmaq, o dövrdə xalqın hər bir cəbhədə iradəsini və qüvvəsini ayaqda saxlamaq hər hansı xəyanətlərə, xarici müdaxilələrə yol verməmək, XXI əsrin savaş nümunəsini müasir texnologiyaların gücü ilə gerçəkləşdirmək - bütün bunların hamısı Prezident İlham Əliyevin nailiyyətləri sırasındadır. Sonrakı dövrdə beynəlxalq təhlükəsizlik sistemindəki vəziyyət, böhranlar hər birimizə bəllidir. Lakin baş verən hərbi toqquşmalar, silahlı əməliyyatlar fonunda sanki böyüdülmüş Qarabağ prosesini görməkdə idik. Lakin XXI əsrdə qələbə qazanan, millətini bütövlüyə daşıyan hələ ki yeganə rəhbər məhz İlham Əliyevdir. 8 noyabr Şuşa Zəfəri ilə İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi millətin dilində epiqrafa çevrildi. O cümlədən bütün şəhidlərimizin, Qarabağı görmədən dünyadan gedən insanlarımızın, xalqımızın qarşısında böyük abidəyə çevrildi.

Qələbəmizi gözdən salmağa çalışan, zəfərimizi yarımçıq kimi dəyərləndirən qüvvələr Qarabağ məsələsini hakimiyyət uğrunda mübarizənin predmeti kimi görərək edənlər hücuma keçdilər. Biz İlham Əliyevin strateji səbrinin şahidi olduq. İlham Əliyev bir tərəfdən Qərb soyuqqanlılığına malikdir, digər tərəfdən, millətin hər bir nəfərini qorumaq üçün böyük fədakarlıq göstərir. Minlərlə insan itkisinin qarşısını aldı, ancaq ən başlıcası regional və beynəlxalq situasiyanı dərindən dəyərləndirərək dövlətlərarası toqquşmalara yol vermədən, Azərbaycanı tarixən gücsüz və əldən salan yanlışları törətmədən qələbəyə apardı.

İndi biz, sözün həqiqi mənasında, 7 fevral prezident seçkilərini xalqın ümumi ruh paradı kimi dəyərləndiririk. İlham Əliyev gənc yaşlarından dövlətin idarəetmə sükanını qəbul edərək, onu uğurla aparır, müxtəlif region və daha üst ərazilərdə baş verən siyasi çöküşlərin, ayrı-ayrı ölkələrin süquta uğradığı ağır bir dönəmdə elə siyasət sərgiləyir ki, xalqımızı qorusun. Biz bununla həm qələbəmizi hifz etməyə, həm də onun üzərinə yeni uğurlar gətirməyə nail olaq. Mehriban xanımla dövlətimizin, xalqımızın ən ümdə ideallarını çiyinlərində daşıyan və bunu uğurlu şəkildə həyata keçirən liderimizə cansağlığı arzulayır, İlham Əliyevin başlatdığı Azərbaycanın uzaqvədəli, çoxəsrlik strategiyasının uğurlu təməl yaratdığına inanırıq.

**Zahid ORUC,**
***Milli Məclisin İnsan hüquqları komitəsinin sədri,***
***Sosial Tədqiqatlar Mərkəzinin İdarə heyətinin sədri***

Azərbaycan.- 2024.- 24 dekabr (№ 284).- S.8.